İstedadlı uşaq və gəncləri tanıyaq və tanıdaq!

Adı "Qızıl kitab"a yazılan qız

Sizə istedadlı bir qız haqqında söhbət açmaq istəyirik. Ölkə Prezidenti İlham Əliyevin "Gənc istedadların xüsusi təqaüdə layiq görülməsi haqqında" 6 fevral 2009-cu il tarixli sərəncamı ilə Zəhra Yusiflinin adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ına yazılıb və o, xüsusi aylıq təqaüdə layiq görülüb. Onunla 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində görüşmək qərarına gəldim. Zəhra görüşə anası Səriyyə xanımla gəlmişdi. Sonra Zəhranın keçdiyi həyat yolu, musiqi sahəsində qazandığı uğurlar barədə hər şeyi ətraflı öyrəndim.

Əvvəla qeyd edim ki, Z.Yusifli 1991-ci ildə Bakı şəhərində anadan olub. 3 yaşından Bakıdakı Leopoldo və Mstislav Rostropoviçlər adına 21 nömrəli Onbirillik Musiqi Məktəblinin eksperimental hazırlıq sinfinə qəbul olunub. Dörd yaşından məktəbin konsertlərində və "açıq dərs"lərində iştirak edib.

6 yaşında olarkən M.Rostropoviçin Bakıya gəlməsi münasibəti ilə təşkil edilmiş konsertdə Zəhra da iştirak etmişdir. Həmin konsertdə iştirak edən ulu öndər Heydər Əliyevə Zəhra gül dəstəsi təqdim etmişdir. Onun ifası hamının xoşuna gəlmişdir. Zəhra hələ I sinifdə oxuyarkən musiqi və incəsənət məktəbləri şagirdlərinin respublika müsabiqəsində I yerə layiq görülmüşdür. Elə həmin il Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə A.Rzayevin fortepiano və orkestr üçün konserti ifa etmişdir. 1999-cu ildən mütəmadi olaraq Azərbaycan Dövlət Simfonik Orkestri ilə konsertlər vermişdir.

O, 2000 və 2002-ci illərdə "Qönca" festivalının laureatı adını qazanmışdır. 2004-cü ildə isə Q.Qarayev adına gənc pianoçuların III Bakı musiqi müsabiqəsində I yer, N.Əliverdibəyov adına gənc ifaçıların IV müsabiqəsində Qran-Pri mükafatını qazanmışdır. 2004-cü ildə Sankt-Peterburq şəhərində keçirilmiş beynəlxalq müsabiqədə laureat adını, həmin il Kiyevdə və 2006-cı ildə Şotlandiyanın Aberdin şəhərində keçirilmiş beynəlxalq festivallarda diplomant adını qazanıb.

Zəhranın ixtisas müəllimləri L.Staskova və G.Namazova onun bütün bu uğurları, xüsusilə Bakı şəhəri üzrə musiqi məktəbləri arasında beynəlxalq musiqi laureatı adı qazandığına görə onunla fəxr edirlər.

Elə biz də Azərbaycanı öz gözəl ifaları ilə tanıdan, adı "Qızıl kitab"a yazılan, bu il təhsilini başa çatdıracaq Zəhra Yusifliyə yeni-yeni uğurlar diləyirik.

Ədalət DAŞDƏMİRLİ

Redaksiyanın poçtundan

Hörmətli redaksiya!

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yenləşdirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" məktəbəqədər təhsilin inkişafı, təhsilin bu pilləsində həlli gözlənən problemlər və çatışmazlıqların aradan qaldırılması üçün geniş imkanlar açmışdır.

Artıq neçənci ildir ki, proqramın icrası istiqamətində bir sıra uğurlu addımlar atılır. Həmin addımlardan biri də Təhsil Nazirliyi ilə "Çaşıoğlu" şirkətinin birgə layihəsi əsasında məktəbəqədər təhsil müəssisələri üçün yeni təlim vəsaitlərinin hazırlanmasıdır. Bu ilin fevralında təqdimatı olmuş həmin vəsaitlər artıq məktəbəqədər təhsil müəssisələrinə daxil olmaqdadır. Bizim rayonun körpələr evi-uşaq bağçaları da16 adda pulsuz illüstrasiyalı nağıl kitabları, metodik vəsaitlər, nümayişetdirici materiallar, multimedia diskləri almışlar. Vəsaitlər "Uşaq ili"ndə məktəbəqədər təhsil müəssisələrinə böyük töhfə olmuşdur. Tərbiyəçilərin öz işlərini müasir səviyyədə qurmağına mühüm kömək göstərəcək həmin vəsaitlər uşaqlarda biliyə maraq, düşünmək arzusu və tələbatı, tapşırığın həllini axtarıb tapmağa, xüsusilə beşyaşlıların məktəb təliminə hazırlanmasına xidmət edəcəkdir. Tərbiyəçilər və uşaqlar üçün son dərəcədə zəruri və maraqlı olan belə vəsaitlər hazırlayıb yerlərə göndərdiklərinə görə Masallı RTŞ rəhbərliyi və məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoji işçilərin adından Təhsil Nazirliyinə və vəsaitləri tərtib edən yaradıcı kollektivlərə minnətdarlığımızı bildiririk.

Minayə ƏZİMOVA,
Masallı RTŞ-ın məktəbəqədər təhsil müəssisələri üzrə metodisti

O, yalnız rənglərin dili ilə danışır

Hamının eşitdiyi səslərin sehrinə heç vaxt düşməyən, özü də bu səslərlə ətrafındakıları heç zaman təəccübləndirməyən, kövrəltməyən, düşündürməyən Dianaya nə yaxşı ki,Tanrı rənglərin dili ilə danışmağı, güldürüb ağlatmağı, sevindirməyi bəxş edib. "Bu dilda" məharətlə danışan Diananın rəsmlərinə baxdıqca onun zəngin mənəvi dünyasının müxtəlif çalarlarını duymaq mümkündür. Hələ yeniyetmə də bu rəsmlərdə biz onun da səsini eşidirik, ah-fağanını, sevincini, kədərini duyuruq. Bu, onun həssas rəssam qəlbinin səsidir.

Diana Bayramova zəifəşidən və sonradan karlaşmış uşaqlar üçün xüsusi rejimli internat məktəbin X sinif şagirdidir. Dərslərini yaxşı oxumaqla bərabər, həm də rəsm həvəskarıdır. Yağlı boyalarla işləməyi çox xoşlayır. Hər sərgisi tamaşaçılarda dərin maraq oyadır, rəsmlərinə görə diplom və fəxri fərmanlara layiq görülüb. İnternat məktəddə Diananın əl işlərindən ibarət sərgi yaradılıb. Diana əllilərin 5-ci və 6-cı ümumrespublika yaradıcılıq sərgi-müsabiqələrinin qalibi olmuşdur.

Diana bu il Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Gülüstan" sarayında uşaqlar üçün keçirilən Yeni il şənliyində iştirak edib. Tədbirdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ilə xatirə şəkli çəkdirənlərin arasında bu istedadlı qız da var.

S.SƏFƏROVA

Milli Qəhrəmanın ad günü qeyd edildi

Bahar bayramı ərəfəsində Azərbaycanın Milli Qəhrəmanı Rafiq Nəsrəddinovun adını daşıyan Bakıdakı 39 nömrəli orta məktəbdə xüsusi bir canlanma var idi. O gün təhsil ocağının pedaqoji kollektivi və şagirdləri Milli Qəhrəmanın ad gününü qeyd etdilər. Məktəbin direktoru Qaçay Tamoyev Azərbaycanın Milli Qəhrəmanı Nəsrəddinov Rafiq Hüseyn oğlunun həyat və döyüş yollarından söz açaraq bildirdi ki, o, Qarabağ uğrunda erməni faşistlərinə qarşı gedən gərgin döyüşlərin birində, 1992-ci il sentyabrın 6-da qəhrəmancasına həlak olmuşdur.

Rafiq Nəsrəddinov 1994-cü il iyunun 16-da ulu öndər Heydər Əliyevin fərmanı ilə Ağdərə rayonundakı Qızıl-Qaya yüksəkliyinin alınmasında göstərdiyi şücaətə görə ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Tədbirdə qonaqlar, müəllim və şagirdlər çıxış edərək onun bərəsində öz xatirələrini danışdılar, qəhrəmanlar, vətən haqqında şeirlər söylədilər.

Tədbirdə Müdafiə Nazirliyinin məsul işçisi Faiq Ələkbərov, əmək veteranı Fatmaxanım Səttarova, müharibə iştirakçısı, valideyn Bağır Məlikov, Milli Qəhrəmanın anası Solmaz, qardaşı Mehdi, qızları Aynır, Nərgiz və başqaları iştirak edirdilər.

Ədalət DAŞDƏMİRLİ

Vətən həsrətli kitabın təqdimatı

M.Müşfiq adına 18 nömrəli təhsil ocağında məktəbin müəllimi Bənövşə Daşdilinin yeniləə çapdan çıxmış "Səndən aralı" şeir kitabının təqdimat mərasimi keçirildi. Tədbirdə müəllimin şeirlərinin lirik qəhrəmanının müqəddəs varlıqlara bağlılığından söz açıldı. "Vətən", "Laçın", "Seni istəyirəm, Vətən" və qaçqınlara həsr etdiyi şeirlərində yurd nisgili, vətən həsrəti, övlad, ailə məhəbbəti duyulan şairin sənətkarlıq xüsusiyyətlərinden danışıldı. Sonra "Aşıq Qurbani" məclisinin üzvlərinə və şagirdlərə söz verildi.

Sonda məktəbin direktoru Vaqif Hüseynov yenice çapdan çıxmış "Səndən aralı" kitabının təqdimat mərasiminin maraqlı keçdiyini vurğuladı, sözü, sənəti qiymətləndirdi.

Fazil İDRİSOQLU

Respublika birinciliyinin qalibləri mükafatlandırılıb

Martın 10-12-də Beyləqan rayonunda keçirilən yunan-Roma güləşi üzrə 1993-1995-ci təvəllüdlü yeniyetmələr arasında "Təhsil" Respublika İdman Mərkəzinin Açıq Respublika birinciliyinə 17 çəki dərəcəsi üzrə 16 komanda tərkibində 247 idmançı iştirak edib. Yarış şəxsi xarakter daşıdığından Beynəlxalq Güləş Federasiyasının yeni qaydalarına uyğun keçirilib.

I, II, III yeri tutan komandalar mərkəzin müvafiq diplomları və qiymətli hədiyyələriylə təltif olunublar.

R. ZİYADOV

Tələbələr ingilis dilində tamaşa göstərdilər

Martın 5-də Azərbaycan Dövlət Rus Dram Teatrında ingilis yazıçısı Ceyn Ostenin "Qürur və qüsse" əsəri əsasında hazırlanmış eyniadlı tamaşa nümayiş olundu. Tamaşanı Qafqaz Universitetinin tələbələri araya-ərəyə gətirmişdilər. İngilis dilində böyük uğurla keçən tamaşada universitetin tələbə və müəllim heyəti ilə bərabər, çoxlu teatrsevar, habelə ayrı-ayrı təşkilatlardan qonaqlar iştirak edirdilər.

Tələbə-aktyorlar maraqlı oyunları, nümayiş etdirdikləri yüksək ustalıq və peşəkarlıqları ilə tamaşaçıların alqışlarını qazandılar.

Günay Quliyevanın təşkilatçılığı ilə baş tutmuş tamaşada əsas rolların ifaçıları Zaur Eyyubov (Darsu), Asuman Can (Elizabet), Celil Cəbrayılov (Mister Bennet) öz oyunları ilə xüsusilə fərqləndilər.

Tədbirdə iştirak edən "British Council"in Azərbaycan nümayəndəliyinin direktoru Nikol le Os de Lalüvye tamaşanı çox bəyəndiyini, tələbələrin əsl aktyor məharəti göstərdiklərini bildirdi, onların artıq ənənəyə çevrilmiş İngilis dilində tamaşalar göstərmək təşəbbüslərini yüksək qiymətləndirdi.

Lalə YUSİFQIZI

Yeni nəşrlər

"Eşqin qarlı yollarında"

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, şair Rafiq Yusifoğlunun "Eşqin qarlı yollarında" şeirlər kitabı (Bakı, 2008, 304 səh.) dərc edilmişdir. Rafiq Yusifoğlu çoxlu şeir, nəsr, publisistika, tərcümə kitablarının, ali məktəblərin tələbələri üçün yazılmış üç dərsliyin və bir monoqrafiyanın müəllifidir. Şairin "Eşqin qarlı yollarında" kitabına onun son illərdə yazdığı şeirlər toplanmışdır.

Kitabda yer alan müxtəlif səpgili şeirlərində müəllifin ürək çırpıntılarını, hiss və həyəcanını duymaya, dərk etməyə bilmirsən. Şair şeirlərində oxucuya doğma yurd-yuvasını sevməyi, Vətən torpağının keşiyində sayıq durmağı tövsiyə edir.

Rafiq Yusifoğlunun özünəməxsus poetik duyumu, sözdəmə qabiliyyəti, ifadə tərzi vardır. Müəllif şeirlərinda oxucular tərəfindən sevilən və yaddaqalan qoşma və bayatı üslubuna üstünlük verir. Rafiqin şeirlərində Azərbaycanımızın ecazkar gözəlliyi, dost və dostluğun dəyəri, ana və övlad məhəbbətinin ülviliyi, başarıyyəti yaşadan sevginin müqəddəsliyi tərənnüm edilir.

Nizami MİRZƏ

Məktəbli idmançılarımızın uğurları



Bakıdakı 276 nömrəli orta məktəbin şagirdləri arasında müxtəlif idman növləri ilə məşğul olan yeniyetmələr çoxdur. Belə şagirdlərdən Elgün Bəylərovun, Nihat İbrahimlinin, Elnur Babayevin və Xəyalə Abdullayevanın adlarını qeyd etmək olar.

Elgün Bəylərov hazırda 11-ci sinifdə oxuyur. O, 2007-ci ildə İtaliyada kunq-fu idman növü üzrə yeniyetmələr arasında keçirilən dünya çempionatında I yeri tutaraq qızıl medala layiq görülüb. Elgün həmin ilde Gürcüstanın Tbilisi şəhərində kinq-boks idman növü üzrə keçirilən dünya çempionatında da erməni rəqibini 18 saniyədə nokauta salaraq I yeri tutmuş və qızıl medala sahib çıxıb. Ötən il ulu öndər Heydər Əliyevin 85-illik yubileyinə həsr olunmuş kinq-boks idman növü üzrə keçirilən beynəlxalq turnirdə Elgün II yeri tutub. Kunq-fu Federasiyası onu fəxri diplomla təltif edib.

XI sinif şagirdi Nihat İbrahimli də kunq-fu üzrə Rumıniyada yeniyetmələr arasında keçirilən dünya çempionatında I yeri tutub.

R.ZİYADOV

Bağça tərbiyəçiləri üçün nəzəri-təcrübi seminar

Bakı Şəhəri üzrə Təhsil İdarəsi Metodik Mərkəzinin Nəsimi-Binəqədi metodik bölməsi 193 nömrəli körpələr evi-uşaq bağçasında adıçəkilən rayonların məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçiləri üçün nəzəri-təcrübi seminar keçirmişdir. "Məktəbəqədər tərbiyə müəssisələrində əqli tərbiyənin inkişaf etdirilməsində riyaziyyat məşğələlərinin rolu" mövzusuna həsr olunan seminarda tərbiyəçilərlə yanaşı, 153, 159, 266 nömrəli uşaq bağçalarının müdirləri, TPİ, BŞTİ-dən aldıyyəti şəxslər iştirak edirdilər.

Seminar iştirakçıları öncə 193, 266, 158, 153, 272, 138, 40, 151, 297, 294, 245, 298 və s. körpələr evi-uşaq bağçalarının tərbiyəçilərinin məşğələlər üçün hazırladıqları əyani vəsaitlərin nümayiş olunduğu sərgiyə baxdılar. Bir sıra tərbiyə ocaqlarının, o cümlədən 153, 178, 193 nömrəli bağçaların sərgiyə təqdim etdikləri əyani vəsaitlər xüsusilə diqqəti cəlb edirdi.

Tədbiri Nəsimi-Binəqədi metodik bölməsinin metodisti Xalidə Səfərova açaraq məqsədin yeni təlim texnologiyaları ilə keçirilən məşğələyə baxmaq, uşaqlarda 7-dək ədədlər, həndəsi fiqurlar haqqında təsəvvürlərin necə formalaşdırılması, onlarda zaman və məkana görə bələdliyin necə yaradılması ilə tanış olmaq, mövzu ətrafında fikir mübadiləsi aparmaq olduğunu bildirdi.

Seminarda 193 nömrəli bağçanın tərbiyəçiləri Çiçək Quliyeva və Səyyarə Abdullayevanın (rus bölməsi) böyük yaş qrupunda riyaziyyatdan apardıqları məşğələ izlənildi.

Sonra seminarın nəzəri hissəsi oldu, izlənilmiş məşğələ, bütövlükdə mövzu ətrafında müzakirə aparıldı. 193 nömrəli uşaq bağçasının metodisti Tərifə Vəliyeva "Məktəbəqədər tərbiyə müəssisələrində əqli tərbiyənin inkişaf etdirilməsində riyaziyyat məşğələlərinin rolu", tərbiyəçi Çiçək Quliyeva "Məktəbəqədər tərbiyə müəssisələrində tərbiyəçilərin riyaziyyat məşğələləri üçün icmaları və uşaqlarla apardıqları iş" mövzusunda çıxışları dinlənildi. 193 nömrəli bağçanın müdiri Məleykə Əsədullayeva çıxış edərək bağçada tərbiyə, təlim işinin keyfiyyətini yüksəltmək üçün görülən tədbirlərdən, tərbiyəçilərlə aparılan metodik işlərdən danışdı.

Təhsil Problemləri İnstitutunun məktəbəqədər kurikulum şöbəsinin müdiri Lalə zar Cəfərova, Nəsimi-Binəqədi metodiki bölməsinin metodisti Gülzar Həsənova və başqaları dinlədikləri məşğələni təhlil edib onu yüksək qiymətləndirdilər, bağçada uşaqların riyazi təfəkküründən inkişafı yönündə məqsədyönlü iş aparıldığını vurğuladılar.

Lalə ƏLİYEVA

Etibarsız sayılır

ADNA tərəfindən 2005-ci ilda Quliyev Zaur Nizam oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

İmişli rayon Məmmədli kənd orta məktəbini 2004-cü ilda bitirmiş Ələkbərov İsfəndiyar Hüsən oğluna verilən B-082275 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

İmişli rayon Məmmədli kənd orta məktəbini 1993-cü ilda bitirmiş Qaraşov Hilal Əli oğluna verilən B-024962 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

ADNA tərəfindən 2007-ci ildə Məmmədov Rüfət Əmirağa oğluna verilən tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Abşeron rayon Xırdalan şəhər 1 nömrəli orta məktəbi 1991-ci ilda bitirmiş Ukleina Anjelika Timafeyevna-ya verilən A-119446 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Sumqayıt Musiqi Texnikumu tərəfindən 1997-ci ilda Karımbəyli Matanat Aşur qızına verilən AB-II-034229 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Yevlax şəhər 2 nömrəli orta məktəbi 1999-cu ilde bitirmiş İbrahimov Ramil Nəmət oğluna verilən 375243 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Bərdə şəhər 2 nömrəli orta məktəbi 2001-ci ilda bitirmiş Atakişiyev Əmir Mübariz oğluna verilən A-463981 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Qazax rayonu Damırçilar kənd orta məktəbini 1992-ci ilda bitirmiş Məmmədrzayeva Gülüstan Bayram qızına verilən 185214 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

Qazax rayonu Aşağı Salahlı kənd orta məktəbini 1997-ci ilda bitirmiş Salmanov Raşad Şahmurad oğluna verilən 087379 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

N.Narimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu tərəfindən 1975-ci ilda Əliyev Ələddin Əşəf oğluna verilən R-109319 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Bakı Axşam Neft Texnikumu tərəfindən 1975-ci ilda Ələkbərova Məhəbbət Zinnətdin qızına verilən 007483 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Sumqayıt şəhər 39 nömrəli orta məktəbi 2000-ci ilda bitirmiş Hüseynov Turab Əkbər oğluna verilən A-421605 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

DİN-nin Polis Akademiyası tərəfindən 2006-cı ilde Məmmədov Seymur Ağaəmməd oğluna verilən BB-I-003083 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Dövlət Tibb Universiteti tərəfindən 2004-cü ilda Nağıyev Kamran Fəxreddin oğluna verilən AB-I-084804 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

Gəncə şəhər 4 nömrəli orta məktəbi 1998-ci ilda bitirmiş Abdullayeva Lale Sərdar qızına verilən A-261282 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan müəllimi" qəzetinin kollektivi BDU-nun elmi işlər üzrə prorektoru, professor **İsmayıl Əliyevə** atası

ƏHMƏDƏLİ ƏLİYEVİN

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Sadıq Vəliyev və institutun kollektivi akademik **Fikrət Əliyevə** atası

ƏHMƏDƏLİ ƏLİYEVİN

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

Bakı şəhəri 240 nömrəli məktəbin kollektivi direktor **E.Məmmədovaya** bacısı

NƏRGİZ İBRAHİMOVANIN

vaxtsız vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Razim və Ramiz Mirzəyevlər yaxın dostları, Tovuz rayon Səfərli kənd orta məktəbinin direktoru **Qəhrəman Poladova** anası

ZƏHRA XANIMIN

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Kooperasiya Universiteti mühasibat uçotu və audit kafedrasının müdiri Ənvər Salahov Kəlbəcər rayon Başlıbel kənd orta məktəbinin qocaman müəllimi

MƏHƏMMƏD ŞAHBƏNDƏYİN

vəfatı ilə əlaqədar mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, millət vəkili Səttar Mehbalıyev və komitənin işçiləri İsmayıllı rayon komitəsinin sədri **Hafiz Kərimova** anası

CAMAL XANIMIN

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

Professor Abbas Səmədov, Sürəyya, Vurğun, Dağqın Səmədovlar, professor Firdovsi Seyidov, Təranə xanım, Ruzbeh, Üzeyir Seyidovlar Bəylər və Zabit Abdullayevlərə əmiləri, əməkdar müəllim, qabaqcıl maarif işçisi

ALLAHVERDİ ABDULLAYEVİN

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bayram HÜSEYNZADƏ

AZ 1073, Bakı-73, Mətbuat prospekti, 529-cu məhəllə,
"Azərbaycan" nəşriyyatı, 9-cu mərtəbə

Qəzet hər həftənin cümə günü çıxır.

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur.

Qəbul otağı və faks - 439-20-77;
Baş redaktor müavini - 438-21-66;
Məsul katib - 438-21-55;
Ali və orta ixtisas təhsili şöbəsi - 438-66-05;
Ümumi orta və peşə təhsili şöbəsi - 438-51-41;
Məktəblər şöbəsi - 432-19-63;
Reklam və elanlar üzrə menecer - 439-20-77;
Mühasibatlıq - 439-67-74;
Müxbirlər - 439-19-74;
- 439-64-00;
- 510-68-73.

LİSENZİYA № 022327
Redaksiyaya daxil olan əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
İNDEKS: 0003 | TİRAJ 12.887 | SİFARİŞ 1195

Məsul növbətçi: Ə.DAŞDƏMİRLİ

BANK HESABIMIZ: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti. Kodu: 505754, VÖEN: 1300017201. Müxbir hesab: 01370100159944. S.W.I.F.T. Bik: UBAZAZ 22
"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № 3308021. VÖEN: 1300397831